*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 9, 2024*
*Səh. 354-358*

https://doi.org/10.62837/2024.9.354

**SADAQAT QASIMOVA**
Azadlıq prospektu 20
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
Email address : 716 gmail.com

# HEYDƏR ƏLİYEVİN NATİQLİK MƏHARƏTİ

**Açar sözlər:** Heydər Əliyev, natiq , ulu öndər ,Azərbaycan xalqı, ana dili, dövlət dili, Azərbaycan Respublikası,
**Ключевые слова:** Гейдар Алиев, оратор, великий лидер, азербайджанский народ, родной язык, государственный язык, Азербайджанская Республика
**Keywords:** Heydar Aliyev, speaker, great leader, Azerbaijani people, native language, state language, Republic of Azerbaijan

Ulu öndərin XX əsr Azərbaycan siyasi natiqliyinin və Azərbaycan nitq mədəniyyətinin təşəkkül tapmasında rolu danılmazdır. Ana dilini ürəkdən sevən və "Azərbaycanlı olması ilə fəxr etdiyini" bütün dünyaya bəyan edən dahi şəxsiyyət H.Əliyev dilimizin inkişafı, zənginləşməsi üçün böyük xidmətlər göstərmişdir. "Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir" deyən ulu öndər Heydər Əliyev dövrünün ən görkəmli natiqlərindən olmuşdur . Heydər Əliyev öz yaradıcı şəxsiyyət keyfiyyətləri , şəxsi nümunəsi ilə dilimizin nüfuzunu artırmış və Azərbaycan dilinin məişət dili, ədəbi dil səviyyəsindən dövlət dili səviyyəsinə qaldırmışdır. O, xalqla onun öz dilində danışırdı və xalq danışıq dilindən gələn ifadələri məharətlə işlədirdi .Heydər Əliyev bir dövlət və siyasi xadim kimi öz döğma ana dilinin elmi şəkildə öyrənilməsi , beynəlxalq aləmdə onun nüfuzunun artması üçün stimullar yaradırdı. Məhz ulu öndər Heydər Əliyevin rəhbərliyi və iştirakı ilə hələ Sovet hakimiyyəti illərində - 1970-ci illərin əvvəllərindən etibarən, Azərbaycan dilindən dövlət əhəmiyyətli tədbirlərdə istifadə edilməyə başlandı. Heydər Əliyev Yazıçılar İttifaqının qurultaylarında, genişmiqyaslı yubiley tədbirlərində dərin məzmunlu çıxış edərək, Azərbaycan dilində səlis və gözəl danışmaq məharəti nümayiş etdirir, bununla da ziyalılarımızın diqqətini ana dilinin inkişafına yönəldirdi.

H.Əliyevin 1993-cü ilin iyun ayında respublika rəhbərliyinə yenidən qayıdışı Azərbaycan tarixində yeni bir başlanğıc oldu. Belə ki, onun Azərbaycan dövlətçiliyinə çıxanlara qarşı müstəqillik uğrunda mübarizəyə çağıran Azərbaycan dilində söylədiyi çıxışları, nitqləri böyük rol oynadı və dahi dövlət xadiminin natiqlik məharətini bir daha ortaya çıxardı . Natiqlik məharətinə görə onunla müqayisə ediləcək ikinci bir şəxsiyyət olmamışdır. Ulu öndərimiz H.Əliyev cənablarının çıxışları bu baxımdan həmişə ən yaxşı nümunədir. Azərbaycan

Respublikasının Milli Məclisinin 15 iyun 1993-cü il tarixli iclasındakı çıxışında – "Ömrümün bundan sonrakı hissəsini harda olursa-olsun, yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm. Və əminliklə demək istəyirəm ki, Azərbaycan Respublikası bundan sonra onun başına nə gəlirsə gəlsin, müstəqilliyini itirməyəcək, yenidən heç bir dövlətin tərkibinə daxil olmayacaq, heç bir başqa dövlətin əsarəti altına düşməyəcək". (2,72)

Azərbaycan dili ümummilli lider Heydər Əliyev şəxsiyyətinin çoxcəhətli fəaliyyətinin hər zaman ayrılmaz tərkib hissəsi olmuş və ana dilimizin bütün problemlərini ( dil və əlifbba ) daim diqqətdə saxlamışdır. O, çox gözəl bilirdi ki :"Xalqı xalq edən, milləti millət edən onun ana dilidir ." Onun aforizmə çevrilən hikmətli sözləri hər zaman xalqımızın dilinin əzbəri olacaqdır.

Belə təsiredici çıxışlar çoxdur. 18 iyun 2001-ci il tarixində imzaladığı "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Fərman da həmin mübarizənin davamı idi. Bu fərmanda qeyd etmişdi ki, "Ana dilimizin öyrənilməsi və tətbiqi sahəsində də hələ görüləsi işlər çoxdur. Ölkəmizin orta və ali məktəblərində Azərbaycan dilinin müasir dünya standartlarına, milli-mədəni inkişaf tariximizin tələblərinə cavab verən tədris işinin təkmilləşdirilməsinə ehtiyac vardır. Bir çox kütləvi informasiya vasitələrində, rəsmi yazışmalarda, kargüzarlıq və s. sahələrdə Azərbaycan ədəbi dilinin normalarına lazımınca əməl edilmir. Azərbaycan dilinin reklam işində istifadə edilməsində ciddi qüsurlar müşahidə edilir. Əcnəbi dilli lövhələr gənc nəslin azərbaycançılıq ruhunda tərbiyəsinə mənfi psixoloji təsir göstərir. Ölkə ərazisində yayımlanan televiziya kanallarının əksəriyyəti xarici dillərdə fəaliyyət göstərir". Və bu istiqamətdə mühüm əhəmiyyətli sənədlər: Müstəqillik dövründə də ulu öndər tərəfindən imzalanmış Fərman "Azərbaycan Respublikası Dövlət Dil Komissiyasının təşkilinin təsdiq edilməsi haqqında" Sərəncam , "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" 9 avqust 2001-ci il) Fərman imzalanmışdır . Eyni zamanda, ulu öndər Heydər Əliyevin 2 yanvar 2003-cü il tarixli Fərmanı ilə "Azərbaycan Respublikasında dövlət dili haqqında" Qanun (sentyabr 2002-ci il) qüvvəyə minmişdir. Heydər Əliyevin ana dili ilə bağlı tələbi belədir: "Hər bir Azərbaycan vətəndaşı, hər bir azərbaycanlı öz ana dilini – Azərbaycan dilini mükəmməl bilməlidir".Bu bir tarixi faktdır ki, dünya liderləri içərisində, o cümlədən türk dünyasında ulu öndər Heydər Əliyev qədər dil məsələsini dövlət siyasəti səviyyəsinə qaldıran ikinci rəhbər olmayıb.

Qeyd etmək lazımdır ki ulu öndər Azərbaycan dili ilə bağlı söhbətlərində nitq mədəniyyəti məsələlərinə həmişə xüsusi diqqət yetirirdi. AMEA-nın müxbir üzvü A.Axundov H.Əliyev haqqında xatirələrini danışarkən deyir ki, bir dəfə ulu öndərimiz məni və institutun bir neçə əməkdaşını yanına çağırtdırmışdı. O, söhbətə başlamazdan əvvəl üzünü mənə tərəf tutaraq soruşdu: "Nə işlə məşğul olursunuz?" Mən Azərbaycan dilinin ayrı-ayrı sahələri üzrə tədqiqatların aparılması, kitabların yazılması, müxtəlif məzmunda lüğətlərin tərtib olunması və s. məsələlər barədə

məlumat verdim. Cavabımdan razı qaldı və dedi: “Bunlar öz yerində, bəs nitq mədəniyyəti ilə bağlı nələr etmişsiniz? Siz bu sahəyə daha çox fikir verməlisiniz ki, xalq öz dilində sərbəst danışa bilsin”. (4 . s.25)

Belə ki , onun düzgün tələffüzü, səsinin tonu , danışıq tərzi aydın və anlaşıqlı idi. H.Əliyevin bir natiq kimi emosiyası onun səsində, mimikasında, əlinin hərəkətlərində və dilinin sintaksisində təzahür edir. Məsələn: «... Şübhəsiz ki, burada keçmiş Sovetlər İttifaqı rəhbərliyinin Azərbaycana qarşı ədalətsiz münasibəti də nəzərə alınmalıdır. Ancaq belə bir ədalətsiz münasibəti müşahidə edənlər gərək ona müvafiq də lazımi işlər görəydilər və Azərbaycanın, xalqın, millətin, Azərbaycan Respublikasının etibarlı müdafiəsini təmin edə biləydilər. Bunlar, təəssüf ki, olmamışdır(5.s.109 )

H.Əliyevin nitqində səslənən «mən bunu dəfələrlə demişəm», «...mən də bunları yaxşı bilirəm. Bəlkə də bunu Azərbaycanda çoxlarından yaxşı bilirəm. Çünki mən Azərbaycana 14 il rəhbərlik etdiyim zaman kənd təsərrüfatı ilə xüsusilə məşğul olmuşam», «Mən Azərbaycan kəndinin hər bir incəliyini bilirəm...» və s. mülahizələryalnız informasiya verməklə qalmır, görkəmli ictimai xadimin mükəmməl avtoobrazını təqdim edir.( 5. 127) Yüksək nitq mədəniyyətinə sahib olan dahi liderin tələffüzü aydın və anlaşıqlı idi. O, özünün məntiqi müraciət formaları və s. ilə dinləyiciləri cəlb edə bilirdi. Natiqlik ona Allah vergisi idi.Bunun üçün dahi natiqin nitq, çıxış, bəyanat və müsahibələri geniş təhlil olunub . Onun natiqlik məharəti incəliklərinə qədər cilalanmışdı. Onunla çiyin-çiyinə işləmək şərəfinə nail olanlar bilirlər ki, ulu öndər bu məharətindən həm natiq, həm diplomat, həm də həssas bir psixoloq kimi istifadə edirdi. O, xalqla elə danışırdı ki, ölkənin hər bir vətəndaşı hamıya deyilən sözləri şəxsən ona ünvanlanmış kimi qəbul edirdi. Onun çıxış nitq bəyanətlərini dinlədikdə ,Heydər Əliyevin fitri istedad olduğunu ,Allah verğili olmasının bir daha şahidi olarıq. . "H.Əliyevin natiqlik məharəti - Azərbaycan xalqının milli sərvətidir; onun bu sahədəki istedadı hər zaman hərtərəfli öyrənilməli, Azərbaycan, ümumtürk və dünya natiqlik sənəti tarixində layiqli yerini tutmalıdır. (6,72 )

"H.Əliyevin natiqlik məharəti - Azərbaycan xalqının milli sərvətidir; onun bu sahədəki istedadı hərtərəfli araşdırılmalı, öyrənilməli, Azərbaycan, ümumtürk və dünya natiqlik sənəti tarixində layiqli yerini tutmalıdır. Bunun üçün dahi natiqin poetikası araşdırılmalıdır". (7,53)

Azərbaycanda Heydər Əliyevin başladığı işlər 2003-cü ildən sonra da Prezident İlham Əlyev tərəfindən uğurla davam etdirilmişdir.

## Xülasə

## Heydər Əliyevin natiqlik məharəti

Bu məqalədə dahi şəxsiyyət Heydər Əliyevin natiqlik məharəti qeyd olunmuşdur.

H.Əliyevin 1993-cü ilin iyun ayında respublika rəhbərliyinə yenidən qayıdışı

Azərbaycan tarixində yeni bir başlanğıc oldu. Belə ki, onun Azərbaycan dövlətçiliyinə çıxanlara qarşı, müstəqillik uğrunda mübarizəyə çağıran Azərbaycan dilində söylədiyi çıxışları, nitqləri böyük rol oynadı və dahi dövlət xadiminin natiqlik məharətini bir daha ortaya çıxardı. Qədim yunan fəlsəfəsinin zirvəsi olan Aristotel e.ə. V əsrdə yazmış olduğu "Ritorika" əsərində "natiqlik məharəti insanların məişət qayğılarından dövləti əhəmiyyət daşıyan məsələlərə qədər səmimi bilgi tələb edən bir keyfiyyətdir kimi qiymətəndirmişdir.

Ulu öndər Heydər Əliyev Azərbaycan Respublikası Gənclərinin I Forumunda demişdi: «Gənclərimiz diinimizi olduğu kimi öyrənməli, qəbul etməli və ondan istifadə etməlidirlər. Biz heç vaxt imkan verə bilmərik ki, ayrı-ayrı şəxslər, ayrı-ayrı qüvvələr öz şəxsi mənafelərini güdərək İslam dini pərdəsi altında Azərbaycan gənclərinin tərbiyəsini və mənəviyyatını zədələsin**».**

O, xalqla onun öz dilində danışırdı və xalq danışıq dilindən gələn ifadələri ustalıqla işlədirdi. Onun nitqlərində natiqlik sənəti özünün ən yüksək zirvələrinə ucala bilmişdir. H.Əliyevin ağıllara asanlıqla yol tapan çıxışları, nitqləri adamları mənəvi-siyasi birliyə, milli dövlətçiliyimizin möhkəmləndirilməsinə, səsləyir, gəncləri ana yurda məhəbbət ruhunda tərbiyə edir.

**Ораторское мастерство Гейдара Алиева**

В статье освещаются ораторские способности великой личности Гейдара Алиева.

Возвращение Гейдара Алиева к руководству республикой в июне 1993 года стало новым началом в истории Азербайджана. Таким образом, его выступления на азербайджанском языке, призывающих к борьбе с теми, кто против Азербайджанской государственности, сыграли большую роль и раскрыли ораторское мастерство великого государственного деятеля. Аристотель, основоположник древнегреческой философии, в своей работе «Риторика» написанной в V веке до нашей эры, охарактеризовал ораторское искусство как качество, требующее искренних знаний, от забот людей до вопросов государственной важности.

Общенациональный лидер Гейдар Алиев на Первом Форуме Молодежи Азербайджанской Республики сказал: "Наша молодежь должна учиться, принимать и использовать наш язык таким, каким он есть. Мы никогда не позволим отдельным лицам и силам нанести ущерб образованию и моральному духу азербайджанской молодежи под видом ислама, преследуя свои собственные интересы".

Он говорил с людьми на своем родном языке, и умело использовал выражения из разговорной речи. В его выступлениях ораторское искусство смогло подняться на высочайшие вершины. Выступления Г. Алиева, легко проникающие в сознание, призывают людей к духовному и политическому

единству, укреплению нашей национальной государственности, воспитывают молодежь в духе любви к Родине.

**SADAQAT QASIMOVA**

**HEYDAR ALIYEV'S ORATORY SKILLS**

The article highlights the oratory skills of the great personality Heydar Aliyev.

The return of Heydar Aliyev to the leadership of the republic in June 1993 marked a new beginning in the history of Azerbaijan. Thus, his speeches in the Azerbaijani language, calling for the fight against those who are against the Azerbaijani statehood, played a great role and revealed the oratory skills of the great statesman. Aristotle, the founder of ancient Greek philosophy, in his work "Rhetoric" written in the 5th century BC, characterized oratory as a quality that requires sincere knowledge, from the concerns of people to issues of state importance.

National leader Heydar Aliyev said at the I Youth Forum of the Republic of Azerbaijan: “Our youth should learn, accept and use our language as it is. We will never allow certain individuals and forces to harm the education and morale of Azerbaijani youth under the guise of Islam, pursuing their own interests.”

He spoke to people in his own language, and skillfully used expressions from colloquial speech. In his speeches, oratory was able to rise to the highest peaks. H. Aliyev's speeches, easily penetrating the mind, call people to spiritual and political unity, strengthening our national statehood, educate young people in the spirit of love for the Motherland.

**İstifadə olunmuş ədəbiyyat**

1.N.Əliyev “Müstəqilliyimiz əbədidir”.Birinci kitab.Bakı.1997
2. “Azərbaycan” qəzeti, 7 noyabr 1996-cı il.
3. Nadir Abdullayev Nitq Mədəniyyətinin Əsasları Bakı – 2013 -274
4. Nizami Xudiyev Seçilmiş Əsərləri səh 109 X cild “Elm və təhsil” Bakı – 2014
5. Zamanov N. Heydər Əliyev və Azərbaycan nitq mədəniyyəti. I cild. Bakı. "Elm və təhsil".2013

**Redaksiyaya daxil olma tarixi: 19.09.2024**

**Çapa qəbul olunma tarixi: 30.09.2024**

**Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent Vəfa Abbasova tərəfindən çapa tövsiyə olunmuşdur**